# FİRİDUN BƏY KÖÇƏRLİ VƏ AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Vaqif Sultanlı*

-Contents-

1. Giriş
2. Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı araşdırmaları
3. Ədəbi tənqidi məqalələri
4. Sonuc

* Baku State University, professor, Vagif Sultanli
와기프 술탄르(바쿠 국립대학교 교수) vagif_sultanli@yahoo.com

[한국어 초록]

# 피루딘 배이 쾨챌리와 아제르바이잔 문학 비평의 중요한 이슈들

아제르바이잔의 저명한 사상가 피루딘 배이 쾨챌리(Firidun bəy Köçərli, 1863-1920)의 문학 비평과 저술 활동은 20세기 초 아제르바이잔의 미학적 이론 및 사고방식의 정수 및 방향성을 총망라한다. 쾨챌리는 아제르바이잔 문학사 연구에 탁월하게 기여했으며, 그의 작품 "아제르바이잔 타타르인의 문학"과 "아제르바이잔 투르크인의 문학"은 아제르바이잔 문학 비평학의 새로운 장을 열었다. 문학 비평 분야에서 피루딘 배이 쾨챌리의 연구는 민족 문학과 관련된 다양한 주제를 다루고 있다. 쾨챌리가 문학과 삶, 계몽, 시, 소설, 연극과 드라마의 문제에 대해 언급한 내용은 오늘날에도 유효한 학술적·이론적 가치를 인정받는다.

**주제어**: 아제르바이잔 문학, 문학비평, 피리둔 베이 쾨챌리, 민족문학, 문학사

# 1. Giriş

XX yüzil ədəbi-nəzəri fikir tarixində müstəsna xidmətləri olan Firidun bəy Köçərli ciddi, sistemli araşdırmaları ilə Azərbaycan söz sənətinin əsrlərin dərinliklərinə uzanan qaranlıq mənzərəsinə aydınlıq gətirmiş, milli ədəbiyyat tarixinin təməl daşlarını qoymuşdur. Ədəbi prosesə həssas münasibət, sənət yanğısı, vətən və millət sevgisi, şəxsiyyətlə yaradıcılığın tənasübü onun maarifçi təfəkkürə söykənən elmi axtarışlarının mahiyyət və məzmununu şərtləndirir.

Akademik Kamal Talıbzadənin fikrincə, Firidun bəy Köçərli "çoxcəhətli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında realizmin, demokratik ideyaların inkişafına və yayılmasına çalışmış, Axundov ənənələrinin mübariz, fəal təbliğatçılarından olmuşdur. Müasir ədəbi hadisələri diqqətlə izləmək və öyrənmək, hiss etdiyi qüsurları cəsarətlə demək və ədəbiyyatın nailiyyətlərini ürəklə təbliğ etmək Köçərlinin diqqətəlayiq cəhətlərindəndir" [Talıbzadə, 1966: 401].

Firidun bəy Köçərlinin həyat və yaradıcılıq yolu XIX əsrin sonları və XX yüzilin əvvəllərində ictimai-siyasi və ədəbi-mədəni mühitin keşməkeşləri ilə müşayiət olunmaqdadır. O, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli və başqa ədəbi-siyasi şəxsiyyətlərin yaşadığı mühitdə yazıb yaratmışdır.

Firidun bəy Köçərli 1920-ci ilin may ayının sonlarında rus sovet işğalçılarına qarşı yönəlmiş Gəncə üsyanında iştirak etdiyi üçün həbs edilərək qətlə yetirilmişdir. Onun şəxsi arxivi yağmalanmış, qələmə

aldığı əsərlərin mühüm bir qismi, o cümlədən müasirlərinə yazdığı məktubları məhv edildiyindən günümüzə qədər gəlib çatmamışdır.

## 2. Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı araşdırmaları

Bütövlükdə "ədəbi-tənqidi irsi xüsusi bir mərhələ təşkil edən" [Bəktaşi, 1986: 6] Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tarix inin ilk sistemli tədqiqatçısıdır. Onun rus dilində yazdığı və 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" ("Лит ература азербай джанских татар") əsəri milli ədəbiyyat tarixinin yaradılmasında ilk mənbə kimi mühüm əhəmiyyətə malikdir. Hələ ilk araşdırmasında "tədqiq üsulundakı eklektizmə baxmayaraq... təzkirəçiliyin çərçivəsini dağıdan", "ədəbiyyat tarixinin tədqiqinə yeni bir istiqamət verən" [Talıbzadə, 1984: 233]. Firidun bəy gələcəkdə bu sahədə aparılacaq axtarışların elmi yöntəmini formalaşdırmışdır.

Bu əsərin ana dilində təkmilləşdirilmiş variantı olan "Azərbaycan türklərinin ədəbiyyatı" (1908) tədqiqatı milli ədəbiyyat tarixinin bütöv mənzərəsinə aydınlıq gətirməkdədir.

Yusif Vəzir Çəmənzəminli "Milli-mədəni işlərimiz" adlı silsilə məqalələrində görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı tədqiqatlarının nəşrinin ədəbiyyatşünaslıq elmi qarşısında duran təxirəsalınmaz işlərdən biri olduğuna diqqəti çəkmişdir. "Firidun bəy ən müqtədir, ən sevimli ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün k eçmişimizi diriltdi. Şairlərimizin ülvi ruhlarını canlandırdı və həyati-fikriyyəmizi təbii yoluna saldı. Çox heyf ki, Firidun bəy həzrətlərinin çox az əsərləri oxuculara mal oldu. Ən güzidəsi,

"Azərbaycan türklərinin ədəbiyyat tarixi" hələ təb olunmayıb qalır" [Çəmənzəminli, 2005: 274].

Təəssüf ki, müəllif ömrünün sonlarına qədər üzərində çalışdığı bu monumental tədqiqatını nəşr etdirə bilməmişdir. Əsər tənqidçinin ölümündən sonra ilk dəfə "Azərbaycan ədəbiyyatı tarixi materialları" (1925-1926) adı ilə iki cilddə nəşr olunmuşdur. Daha sonralar isə tədqiqat "Azərbaycan ədəbiyyatı" adı ilə oxucuların mühakiməsinə verilmişdir.

Bir məsələyə diqqət yetirilməlidir ki, Firidun bəy Köçərlinin "Azərbaycan türklərinin ədəbiyyatı" əsərində elmi-bioqrafik tədqiqatlarla bədii materiallar müştərək şəkildə araşdırmaya daxil edilmişdir. Ayrı-ayrı sənətkarların yaradıcılığı haqqında məlumat verən ədib, eyni zamanda onların əsərlərindən müəyyən örnəkləri də tədqiqata daxil etmişdir. Lakin bu "Azərbaycan türklərinin ədəbiyyatı" tədqiqatının elmi-nəzəri araşdırma deyil, ədəbi material kimi dəyərləndirilməsinə əsas vermir. Akademik Kamal Talıbzadənin doğru qeyd etdiyi kimi, "Azərbaycan türklərinin ədəbiyyatı" kitabını "material" hesab edənlər, onun elmi mahiyyət daşımadığını iddia edənlər səhv edirlər" [Talıbzadə, 1966: 451].

Firidun bəy Köçərli öz tədqiqatı üzərində işləyərkən təzkirələrdən bəhrələndiyini əsərin müqəddiməsində qeyd etmişdir. Lakin o, ənənəvi təzkirəçilik yolu ilə getməmiş, ciddi, sistemli ədəbiyyat tarixi tədqiqatı yaratmışdır. Ədib yazdığı araşdırmanı Lütfəlibəy Azərin "Atəşgədə" əsərindən fərqləndirərkən bu məqama xüsusi diqqət yetirmişdir: "Lütfəlibəyin kitabı ilə bizim məcmuənin arasında təfavüt çoxdur. Belə ki, mərhum Azər "Atəşgədə"sində hər bir şairin tərcümeyi-halına dair müxtəsər əhval yazıb əsərlərindən azacıq və bir-birinə münasibəti

olmayan nümunələr göstərir. Amma biz mümkün olduğu qədər də məşhur şüəra və üdəbamızın həm tərcümeyi-hallarına və həm asari-qələmiyyələrinə dair ətraflı məlumat vermişik, məzkur əsərlərin haqqında öz rəy və təsəvvüratımızı yazıb tosif və ya tənqidə layiq olan məqam və nöqtələri şərh və bəyan etmişik” [Köçərli, 2005a: X].

Firidun bəy Köçərlinin fundamental tədqiqatının “tarixi-elmi əhəmiyyətini müəyyənləşdirən cəhətlərdən biri də bu idi ki, Azərbaycan xalqının ədəbiyyat tarixinin yoxluğuna dair fikirləri təkzib edir, ədəbi-mədəni mühitdə milli ədəbiyyatımızın tarixinə baxış sistemini dəyişməyə müvəffəq olurdu” [Salamoğlu, 2009: 109].

Bəlli olduğu kimi, Firidun bəy Köçərli “Azərbaycan tatarlarının ədəbiyyatı” əsərində milli ədəbiyyat tarixini Molla Pənah Vaqifin yaradıcılığı ilə başlamışdır. Azərbaycan ədəbiyyatı tarixini M.P.Vaqiflə başlamasının başlıca səbəbi bir çox tədqiqatçıların təxmin etdiyi kimi material qıtlığı, klassik irsə bələdsizlik deyil, ədibin siyasi-coğrafi mövqedən çıxış etməsidir. Rusca yazılmış tədqiqatın adı da bu qənaətə gəlməyə əsas verir.

İlk tədqiqatından fərqli olaraq “Azərbaycan türklərinin ədəbiyyatı” əsərində ədəbiyyatın mənşəyinin müəyyənləşdirilməsində ana dili faktorunu əsas götürən Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tari xini Məhəmməd Füzulinin yaradıcılığı ilə başlamışdır. Burada ədib Azərbaycan türkcəsinin yayıldığı bütün arealı əhatə etməyə çalışmış, araşdırmaya da buna uyğun ad vermişdir. Düzdür, tədqiqatçı Əbül Üla Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi kimi farsca yazan sənətkarların yaradıcılığından da bəhs etmişdir, lakin bütövlükdə onun əsas qayəsi ana dilində yaranan ədəbi irsi araşdırmaq olmuşdur.

Firidun bəy Köçərlinin ədəbiyyat tarixinə həsr olunmuş tədqiqatını

"Azərbaycan ədəbiyyatı" adı ilə iki cilddə nəşr etdirən professor Ruqiyyə Qənbərqızı yazır: "Əsərin coğrafi prinsip üzrə qruplaşdırıldığı göstərilmiş və bu onun metodoloji nöqsanlarından biri sayılmışdır. Halbuki əsərə daha diqqətlə yanaşıldıqda bu fikrin birtərəfli və qeyri-dəqiq olduğu meydana çıxır. Düzdür, əsərdə yazıçılar əraziyə görə bölüşdürülür; amma bu "Azərbaycan ədəbiyyatı"ndakı təsnifatda əsas prinsip deyildir. Çünki burada yazıçıların coğrafi ərazi üzrə bölüşdürülməsi müəyyən dövr bölgüləri daxilində aparılır. Tekstoloji araşdırmadan aydın olur ki, əsərdə əsasən tarixilik prinsipi əsas götürülmüş və çoxəsrlik ədəbi irsimiz qədim və orta əsrlər, XVIII əsr, XIX əsrin birinci yarısı və nəhayət XIX əsrin ikinci yarısı kimi dövrlərə ayrılmışdır" [Köçərli, 2005a: 22-23].

Qeyd edək ki, Firidun bəy Köçərlinin tədqiqat fonunda "apardığı dövrləşdirmə Azərbaycan ədəbiyyatı tarixçiliyində həmin sahədə ilk və olduqca əhəmiyyətli addımlar kimi qiymətləndirilə bilər" [Köçərli, 2005a: 23].

"Azərbaycan türklərinin ədəbiyyatı" əsərində Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov, Seyid Həmzə Nigari, Aşıq Pəri, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Əbülqasim Nəbati, Xurşidbanu Natəvan və digər sənətkarlar haqqında müxtəlif həcmli portret yazılar verilmişdir. Əsərdə Məhəmməd Füzuli yaradıcılığına xüsusi diqqət yetirən ədib onu "türk şairlərinin babası" kimi dəyərləndirərək yazır: "Və insafən demək olur ki, türk ədəbiyyatının banisi Molla Məhəmməd Bağdadi olubdur. Əgərçi ondan müqəddəm türklərdən də bəzi mötəbər şairlər olubdur, vəli onun kimi müqtədir və cəmi-lisana malik və camei-fünuni-nəzm və nəsr olmayıbdır. Və həqiqətdə demək olur ki,

türk dilinə rövnəq verən və onu xarü xaşakdan təmizləyib bir göyçək və səfalı çəmənə bənzədən Füzuli olubdur. Və bununla biz türklərin üstə ümumən və Azərbaycan türklərinin boynuna xüsusən böyük bir minnət qoyubdur" [Köçərli, 2005 a: 58].

Firidun bəy Köçərlinin fikrincə, M.Füzulunun əsərlərinin əbədiliyini şərtləndirən əsas məqam təbii hissiyyata söykənməsi, digər tərəfdən elm və tərcrübənin vəhdətindən qaynaqlanmasıdır. "Füzulinin asari-qələmiyyəsinin hələ daha da çox zamanlar həyat üzrə davam edib tərü təzə qalmağına iki ümdə səbəb vardır. Onlardan birisi budur ki, haman əsərlərin tamamisi pak, həqiqi və təbii hissiyyatdan nəşət etmiş əsərlərdir ki, eşqi-həqiqidən bəhs edir. ...İkinci səbəb onların elm və təcrübə üzü ilə təbi-səlimdən doğub vüqua gəlmələridir" [Köçərli, 2005a: 64-65].

"Azərbaycan türklərinin ədəbiyyatı" əsərində M.F.Axundovun yaradıcılığına böyük önəm verən ədəbiyyatşünas onu "müsəlmanların əvvəlinci reformatoru" adlandırır və böyük mütəfəkkirin ədəbi irsini bu kontekstdə dəyərləndirir. "Qəti surətdə deyə bilərik ki, rus drama yazanlarının babası Qoqol və firəng drama yazanlarının babası və ustadı Molyer olan kimi, türk-Azərbaycan ədiblərinin və komediyanəvislərinin atası və yolgöstərəni mərhum Mirzə Fətəli Axundzadə olubdur" [Köçərli, 2005a: 411]. Firidun bəy Köçərlinin fikrincə, "Mirzə Fətəlinin komediyaları məişətimizin təəccüblü bir aynasıdır ki, zahirimizi də və batinimizi də eynilə göstərir" [Köçərli, 2005a: 412].

## 3. Ədəbi tənqidi məqalələri

Firidun bəy Köçərli M.F.Axundov məktəbinə mənsub realist ədəbi tənqid konsepsiyasının davamçılarından olmuşdur. Ədibin "Tatar komediyaları", "Müsəlman müəllimlərinin hümməti", "Ədəbiyyatımıza dair məktub", "Azərbaycan şairi Vaqifin həyatından", "Usta Zeynal", "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz", "Ana dili", "Milli şairimiz Abbas ağa Qaibzadə", "Sultan Məcid Qənizadə", "Nikolay Vasilyeviç Qoqol", "L.N.Tolstoy və müsəlman Şərqi" və başqa məqalələri milli ədəbi-estetik fikrin dəyərli nümunələrindəndir. Tənqidçinin sənətin ideyalılığı, forma və məzmun gözəlliyi, ədəbi dilin təmizliyi barədə fikirləri yeni və orijinaldır. O, yuxarıda adı çəkilən məqalələrində və digər tədqiqatlarında Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, Sultan Məcid Qənizadə və başqaları haqqında ədəbi-tənqidi mülahizələr söyləmişdir. Ədibin sərrast müşahidədən qaynaqlanan qənaətləri ayrı-ayrı sənətkarların bədii irsinin özəlliklərini, fərdi yaradıcılıq üslubunu, ədəbi mövqeyini aşkarlamaq baxımından dəyər daşımaqdadır. Məhz bu keyfiyyətlərinə görə Firidun bəy Köçərli "XX əsr Azərbaycan ədəbi həyatında elə bir mövqe tutur ki, onu dərindən öyrənmədən həmin dövrün ədəbi-tənqidi fikrini tədqiq etmək, bu sahədə dürüst nəticələrə gəlmək çox çətindir" [Talıbzadə, 1984: 401].

Ədəbiyyatın nəzəri məsələləri ilə ardıcıl şəkildə məşğul olan Firidun bəy Köçərli "Ədəbiyyatımıza dair məktub" adlı məqaləsində sənətkarın yaracılıq missiyasını müəyyənləşdirərək yazırdı ki, "həqiqi şair öz zəmanəsinin aynasıdır" [Köçərli, 1963: 99]. Tənqidçinin fikrincə,

gərək şair “öz səsini millətin səsinə qoşub, onun qeyrət və təəssüb damarını hərəkətə gətirə; təsirli kəlamı ilə onu qəflətdən bidar edib, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət edə” [Köçərli, 1963: , 100]. Ədəbiyyatşünasın qənaətincə, “Həqiqi şairin baş vəzifəsi mənanı yetirməkdir. Çünki hər bir qissəvü-hekayətin ruhu onun içində olan məna və məzmundur” [Köçərli, 2005b: 382].

Müəllif adı çəkilən məqaləsində ədəbiyyatla bağlı qənaətlərini açıqlayarkən Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir və Seyid Əzim Şirvaninin geniş oxucu kütləsi tərəfindən bəyənilməsinin səbəblərini onların ruhən və qəlbən sözə bağlı olmaları ilə izah edir. “Bu müntəxab şairlərin qələmlərindən hər nə zühura gəlibsə, demək olar ki, can riştəsi ilə və ürək qanı ilə təhrir və tənzim olunubdur” [Köçərli, 1963: 100]. Firidun bəy Köçərli Molla Pənah Vaqif və Molla Vəli Vidadinin daha çox gözəllərin vəsfinə şeir yazmasını tənqid edənlərə “bunlar öz əsrlərinin təqazasına müvafiq rəftar ediblər” və qələmə aldığı əsərlər səmimi düşüncə və hissiyyatın məhsuludur, deməklə onların yaradıcılığını mənsub olduğu zamanın kontekstində dəyərləndirir. Məqalədə Molla Pənah Vaqifin “Görmədim” müxəmməsi ideya-məzmun baxımından son dərəcə dəyərli poetik örnəklərdən biri kimi səciyyələndirilir.

Tədqiqatçı bədii yaradıcılıqda hissiyyata önəm verərək, bu aspekti yazılan əsərin oxucu qəlbinə yol tapmasının mühüm şərtlərindən biri kimi dəyərləndirirdi. Onun fikrincə, yalnız ağlın məhsulu olan, hiss və emosiyalardan məhrum əsərlər bədii uğur qazana bilməz. Tənqidçinin qəti qəınaətincə: “Hər kəlamın təsiri o vaxt dürüst və təbii olar ki, onun mənbəyi şairin ürəyi və zəmiri-safi ola. Ağıl və zor ilə yazılmış kəlam nə qədər mövzun və müfəssəl olsa da, oxuculara təsir edə

bilməz. Hissiyyati-qəlbiyyə bəlağət və fəsahətin əvvəlinci müəllimidir. Hər bir müəllif və şairin baş arzusu qarelərin qəlblərini təsxir etməkdir və bu arzuya vasil olmaq ancaq o vaxt mümkün olar ki, əşar və asarın törənəcək yeri hissiyyat ola və hissiyyat nə qədər ali və təbii olsa, bir o qədər kəlamın təsiri artıq olacaqdır" [Köçərli, 1963: 100].

Firidun bəy Köçərli "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" adlı məqaləsində poeziyada təsvir olunan gözəlin zahiri ilə yanaşı, daxili dünyasının zənginliyinə xüsusi önəm verilməsinə, bu vəhdətin zərurətinə diqqəti yönəldir: "İnsanın gözəlliyi, zahiri məlahət və hüsnü lətafətdən ibarət olmayıb, onda ağıl və fərasətin mövcud olmağı dəxi əvvəlinci şərtlərdəndir. Zahiri gözəlliyi və hüsn-camalı kamala yetirən ağlın nuru və mərifətin ziyasıdır. Ağılsız və mərifətsiz gözəl məqbul və müstəhsən deyildir. Bir surət zahirdə nə qədər düzgün, eyibsiz və qüsursuz olsa da, onda ağlın nuru təcəlli etməsə, kamal və mərifət asarı görsənməsə, o surət dilpəsənd, könülalıcı və fərəhgətirici ola bilməz." [Köçərli, 1963: 219]. Məqalədə ciddi sosial məsələlələrə toxunan görkəmli ədib Şərq-islam dünyasında mövcud olan bir çox problemlərin təməlində qadın azadlığının dayandığını vurğulayır. O, poeziyada gözəlin zahiri təsvirinə önəm verilməsinin əsas səbəbini qadının azad olmamasında, hiss və duyğularını ifadə edə bilməməsində görür.

Maraqlıdır ki, Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatında poeziya ilə müqayisədə bədii nəsr örnəklərinin az yaranmasının səbəblərinin də qadın azadlığı ilə ilgili olduğuna diqqəti çəkir. "Nəsr əsərlərinin Şərq xalqlarının ədəbiyyatında belə az olması bizim fikrimizcə, bu xalqlarda qadının örtülü vəziyyətdə saxlanılması və öz xalqlarının həyatına təsir

göstərmək imkanından məhrum olmasıdır. Bir halda ki, qadınlar həmişəlik kölə vəziyyətindədir və həyatda müəyyən rol oynamaq imkanından məhrumdur, onların haqqında azad adamlar kimi, müəyyən ideyalara, meyllərə malik olan qəhrəmanlar kimi danışmaq da mümkün deyildir. Qadın, yəni məhəbbət və bununla əlaqədar olan əziyyətlər, bir-birinə qarşı duran xeyir və şər qüvvələrin mübarizəsi olmayan roman isə çox darıxdırıcı bir şeydir; belə roman oxucuya səmərəli, nəcib və yüksək təsir göstərə bilməz" [Köçərli, 1963: 81]. Ədib Nəriman Nərimanovun "Bahadır və Sona", Sultan Məcid Qənizadənin "Məktubati Şeyda bəy" əsərlərində qadın surətlərinin özgə millətlərdən seçilməsini Azərbaycan cəmiyyətində qadının azad olmaması ilə izah edirdi.

"Ədəbiyyatımıza dair məktub" məqaləsində çağdaş poeziya haqqında da fikirlərini ümumiləşdirən tənqidçi elmin, maarifin tərifinə həsr olunmuş hissiz, ruhsuz, bədii dəyəri olmayan əsərləri tənqid edir. "İndiki şairlərimizə gəldikdə, onların təbi-şeirləri barəsində bir sözümüz yoxdur; təbləri mövzun, fikirləri gözəl, niyyətləri məqbul və müstəhsən olmağına şübhəmiz yoxdur. Bunların hamısı var. Ancaq şeirə lətafət və məlahət verən hissiyyati-həqiqi və zövqi-təbii yoxdur və buna da səbəb anladığımıza görə odur ki, bu ərbabi-bəlağələrimiz bir şeyin yaxasını tutub yüz cürə əlfaz və ibarə və istiarələr ilə onu tərif və tövsif etməyə sərfi-hümmət qılırlar. Məsələn "elm". Bu halda bir kəs tapılmaz ki, elmin fəzilət və mənfəətini və onun cümləyə zərur olmasını inkar edə. Avamdan dəxi sual olunsa ki, şeyin elmi yaxşıdır, yoxsa cəhli, bişək və laşübhə deyəcəkdir ki, elmi yaxşıdır. Belə olan surətdə uzun-uzun şeirlərdə elmi və kamalı tərif etməyə nə hacət var?" [Köçərli, 1963: 102].

"Azərbaycan komediyaları" adlanan məqaləsində Firidun bəy Köçərli dramaturgiyanın klassik divan şeirindən fərqli olaraq xalq həyatı ilə sıx bağlılığına, burada sosial problemlərin geniş şəkildə canlandırılmasına diqqəti yönəltmişdir. O, Azərbaycan dramaturgiyası tarixinə ekskurs edərək Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov və Nəriman Nərimanovun yaradıcılığı haqqında yığcam şəkildə fikir və mülahizələrini bildirir. Tənqidçi daha çox önəm verdiyi Mirzə Fətəli Axundovun komediyalarını realizminə, həyatiliyinə, tipikliyinə görə yüksək qiymətləndirir: "Onun hər hansı bir komediyasını oxuyub qurtarandan sonra adama elə gəlir ki, uzun müddət yaxından tanıdığın adamların arasında olmusan və həmin adamlardan lap yaxın vaxtlarda ayrılmısan" [Köçərli, 1963: 36].

Məqalədə ədib Nəriman Nərimanovun "Nadanlıq" pyesini geniş şəkildə təhlil edərək onun uğursuzluğuna diqqəti çəkir. Tənqidçinin mülahizələrinə görə, pyesin uğursuzluğunun əsas səbəbi müəllifin hadisələrə bələdsizliyində, qara boyalara üstünlük verməsində, qaldırılan problemin yeni olmamasındadır: "Bu pyes qarışıq növdən olan bir dram əsəridir. Hadisələrin düyümü pis düşünülmüş, onların açılması isə qeyri-təbii bir faciə ilə qurtarır. Əsərin heç də yeni olmayan ideyası – nadanlıq üzündən insanların necə kobudlaşdığını və rəhmsiz olduğunu göstərməkdən ibarətdir. Müəllif bədbəxt kəndlilərin şəxsində nadanlığın nümayəndələrini səciyyələndirmək üçün öz qara boyalarını əsirgəməmişdir. Lakin əsəri hər cəhətdən düşünüb mülahizə edəndə görürsən ki, müəllif kəndlilərin məişəti və adətləri ilə qətiyyən tanış deyildir. Nərimanovun çox biçimsiz və yöndəmsiz bir halda onların dilinə verdiyi bütün mənasız və mətləbsiz mülahizələr – boş fantaziya məhsulundan başqa bir şey deyildir" [Köçərli, 1963: 38].

Akademik Bəkir Nəbiyev Firidun bəy Köçərlinin bəhs olunan əsərlə bağlı qənaətlərini dəyərləndirərək yazır: “Nəriman Nərimanovun “Nadanlıq” komediyası haqqında Köçərlinin mülahizələrində obyektiv təhlil əsas yer tutur” [Nəbiyev, 1984: 102].

“Usta Zeynal” adlanan məqaləsində Cəlil Məmmədquluzadənin e yniadlı hekayəsini təhlil obyektinə çevirən tənqidçi əsəri yaşadığı əsrin təvəkkül və tənəzzül fəlsəfəsini məharətlə canlandırdığına görə yüksək qiymətləndirirdi. Tənqidçi həmçinin bu hekayə fonunda yazıçının yaradıcılıq üslubunu, dəst-xəttini səciyyələndirərək yazırdı: “Sadəlik, təbiilik və real həyata yaxınlıq Məmmədquluzadə hekayələrinin əsas məziyyətləridir. Hər şeydən görünür ki, müəllif öz xalqının həyatını və dünyagörüşünü yaxşı bilir və incə müşahidə qabiliyyətinə malikdir” [Köçərli, 1963: 135].

Firidun bəy Köçərli “Sabir haqqında” adlı kiçik həcmli yazısında əsrin əvvəllərində “Molla Nəsrəddin” dərgisi fonunda parlayan, qeyri-adi istedada malik Mirzə Ələkbər Sabirin ədəbi portretinin özəlliklərini səciyyəndirmişdir. “Sabir əsrimizin ən müqtədir, ən xoştəb şairlərindən birisidir. …Sabirin təbində bir o qədər zəriflik və dilində elə bir lətafət var ki, güldürə-güldürə ağladır, ağlada-ağlada güldürür” [Köçərli, 1963: 276]. M.Ə.Sabirin xəstəliyindən və millətin ona qarşı biganəliyindən təəssüflənən ədəbiyyatşünas kədərli bir üslubda mülahizələrini davam etdirir: “Bizi dərin fikrə salan bizim bu qədər bihümmət, biqeyrət olmağımızdır, qədr bilməməyimiz və əmək itirməyimizdir. Hacı Seyid Əzimin dəstpərvərdəsi olan Sabir kimi xoştəb şairimiz, əhli-qələmimiz ehtiyac və zillətdə xəstə olub yatır. Amma biz onun yoxsulluğundan və ağır halda naxoşluğundan bixəbər və qafil oturmuşuq. Onun varlığı ilə yoxluğu halımıza xələl yetirmir,

keyfimizi pozmur" [Köçərli, 1963: 276-277]. Ədib M.Ə.Sabirin vəfatı münasibətilə qələmə aldığı "Vəfati-şair" məqaləsində isə bu böyük itkini ürək yanğısı ilə dəyərləndirir: "Sabir getdi – bizi dəxi sinəsi dağlı və ürəyi qəmli, həsrətdə qoydu. Mərhumdan bizim böyük təmənnalarımız var idi. Onun lisanından təzə sözlər, təzə fikirlər eşitmək istəyirdik. Bəli, çox əfsus ki, əcəldən macal olmadı və Sabir həsrət ilə gedib, bizi də həsrətdə qoydu" [Köçərli, 1963: 278].

"Ana dili" adlı məşhur məqaləsində doğma dilə böyük önəm verən tənqidçinin fikrincə, bu dilin saflığının qorunması hər bir qələm sahibinin vicdan borcudur. "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir. Bu, allah-təalanın gözəl nemətlərindən birisidir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur" [Köçərli, 1963: 292]. Lakin Firidun bəy Köçərlinin "Ana dili" məqaləsində müəyyən mübahisəli məqamların olduğu da diqqəti çəkməkdədir. Şübhəsiz ki, bu məqam "Molla Nəsrəddin"lə "Füyuzat" ədəbi məktəbi arasındakı fərqlilikdən qaynaqlanır. Belə ki, ədib bəhs olunan məqalədə Osmanlı türkcəsindən dilimizə sözlərin daxil olmasına, dolayısı ilə ortaq türk dilinin yaranmasına qarşı çıxır: "Allah Əlibəy Hüseynzadəyə insaf versin. Kaş o alicənab İstanbulda rahat əyləşib bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi. O cənabın elm və kamalına sözümüz yoxdur. Sözümüz ondadır ki, elm və kamalından bizə bir bəhrə vermədi, ancaq dilimizə pozğunluq saldı, təzə dil gətirdi" [Köçərli, 1963: 294]. Lakin zamanın arxasından çevrilib həmin illərə nəzər salanda ana dilinin sağlığı məsələsində Firidun bəy

Köçərli öz mülahizələrində müəyyən qədər haqlı olsa da, Əlibəy Hüse ynzadənin ortaq türkcəyə aparan gələcəyə yönəlik düşüncələrində böyük uzaqgörənliyi duymamaq mümkün deyildir.

Firidun bəy Köçərlinin ədəbi-tənqidi irsində diqqəti çəkən məqamlardan biri də yeri gəldikcə müqayisəli araşdırmalar aparması, ədəbiyyatı qarşılaşdırmalı bağlamda təhlil obyektinə çevirməsidir. Müəllif “Ədəbiyyatımıza dair” adlı məqaləsində Molla Pənah Vaqif, Molla Vəli Vidadi və Qasım bəy Zakirin “Durnalar” şeirini müqayisəli təhlilə çəkmiş, onların oxşar və fərqli məqamlarını səciyyəndirmişdir [Köçərli, 1963: 130-134]. Tədqiqatçı eyni mövzuda yazılmış bu şeirlərin dil, üslub, və sosial ovqatdan qaynaqlanan fərqliliklərini önə çəkmiş, təhlillərini bu zəmində gerçəkləşdirmişdir.

“Nikolay Vasilyeviç Qoqol” adlı məqaləsində A.S.Puşkinlə N.V.Qoqolun yaradıcılığını müqayisəli təhlilə cəlb edən Firidun bəy Köçərli bu iki mütəfəkkirin ədəbiyyat tarixindəki xidmətlərini dəyərləndirərək yazırdı: “Puşkinin təbi durbinə, amma Qoqolun təbi zərrəbinə təşbeh olunubdur. Puşkin durbin kimi məişətin uzaq yerlərini və gözəl mənzərələrini işıqlı və qəşəng bir halda göstərirkən, Qoqol zərrəbin kimi yaxında olan və gözün önündə, şişənin altında tərpənən nifrətəngiz həşərat və mikrobları böyüdüb göstərir” [Köçərli, 1963: 212-213]. Ədib N.V.Qoqolunun bəzi əsərlərinin, o cümlədən “Müfəttiş” və “Ölü canlar”ın yaranmasında A.S.Puşkinin təsirini səciyyələndirmiş, onun bir nasir kimi formalaşmasında bu təsirin müəyyən rol oynadığını göstərmişdir.

Ədibin həmin məqaləsində N.V.Qoqolla M.F.Axundovun da ədəbi irsi müqayisə obyektinə çevrilmiş, yaradıcılıqlarındakı ortaq çalarlar vurğulanmışdır. “Bizim ədiblərimizdən Mirzə Fətəli Axundov

asari-qələmiyyəsi ilə Qoqola çox bənzəyir. Mirzə Fətəli dəxi öz komediyalarında xəyalat gücü ilə, savad zoruyla bir şey yaratmayıb, hər nə yazıbsa, dolanacağımızın eynindən və məişətimizin övzai-əhvalından götürübdür. Mərhum Mirzə dəxi zahirdə yazdıqlarının üstə gülürsə də, batində ağlayır" [Köçərli, 1963: 213].

Firidun bəy Köçərlinin müasirlərinə yazmış olduğu məktublar Azərbaycan ədəbi-tənqidi fikrinin bənzərsiz səhifələrindən birini təşkil etməkdədir. Bu məktublarda müəllif öz müasirləri olan yazıçı və şairləri zamanın ruhuna uyğun, aktual mövzularda əsərlər yazmağa, millətin problemlərinə güzgü tutmağa səsləyirdi. Tənqidçinin M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.M.Qənizadə, A.Nazir və başqa müəlliflərlə yazışmaları onların yaradıcılığında çağdaşlıq meyllərinin güclənməsində mühüm rol oynamışdır. Lakin çox təəssüf ki, ədibin arxivi dağıdıldığından bu məktubların böyük əksəriyyəti günümüzə qədər gəlib çatmamışdır.

## 4. Sonuc

Təhlillərdən aşkar göründüyü kimi, Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidinin inkişafında önəmli rol oynamışdır. O, rusca nəşr etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" (1903) və ana dilində qələmə aldığı, sağlığında yayınlanmamış "Azərbaycan türklərinin ədəbiyyatı" (1908) əsərləri ilə ilk ədəbiyyat tarixinin yaradılmasına nail olmuşdur. Ədib böyük elmi dəyər daşıyan bu əsərlərilə əski çağlardan XX yüzilin əvvəllərinə qədər Azərbaycan ədəbiyyatının keçib gəldiyi yolun aydın mənzərəsini canlandıra bilmişdir. Firidun bəy Köçərlinin fəaliyyəti yalnız ədəbiyyat

tarixinin, klassik irsin araşdırılması ilə məhdudlaşmır. O həmçinin çağdaş ədəbiyyatın bir çox görkəmli şəxsiyyətlərinin yaradıcılığını araşdırmaqla milli ədəbi tənqidin gəlişməsinə, yeni elmi-nəzəri çalarlarla zənginləşməsinə töhfələr vermişdir. Ədibin klassik və müasir ədəbiyyatla bağlı araşdırmaları Azərbaycan ədəbi-estetik və elmi-nəzəri düşüncə tarixinin əvəzsiz qaynaqlarını oluşdurmaqdadır.

## [Ədəbiyyat]

Bəktaşi İnayət (1986). Firidun bəy Köçərlinin yaradıcılıq yolu, Bakı: "Yazıçı" nəşriyyatı, 182 s.

Çəmənzəminli Yusif Vəzir (2005). Əsərləri, Üç cilddə, III cild, Bakı: Avrasiya Press nəşriyyatı, 440 s.

Fikrin karvanı: Görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları (1984), Bakı: "Yazıçı" nəşriyyatı, 346 s.

Köçərli Firidun bəy (2005a). Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild, Bakı: Avrasiya Press nəşriyyatı, 560 s.

Köçərli Firidun bəy (2005b). Azərbaycan ədəbiyyatı, 2 cilddə, II cild, Bakı: Avrasiya Press nəşriyyatı, 464 s.

Köçərli Firidun (1963). Seçilmiş əsərləri, Bakı: Az.SSR EA nəşriyyatı, 341 s.

Nəbiyev Bəkir (1984). Firidun bəy Köçərli, Bakı: "Gənclik" nəşriyyatı, 226 s.

Salamoğlu Təyyar (2009). Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar, Bakı: "El" nəşriyyatı, 213 s.

Talıbzadə Kamal (1984). Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı: "Maarif" nəşriyyatı, 340 s.

Talıbzadə Kamal (1966). XX əsr Azərbaycan tənqidi, Bakı: Azərbaycan EA nəşriyyatı, 540 s.

접수일: 2021.12.10. 총평일: 2021.12.22. 게재확정: 2021.12.27. 무심사 게재

[ABSTRACT]

## Fridun bey Kocharli and important issues of Azerbaijan literary criticism

Vagif Sultanli(Baku State University)

The literary-critical and literary activity of the prominent thinker Firidun bey Kocharli (1863-1920) reflects in all respects the way of the theoretical and aesthetic thought of Azerbaijan at the beginning of the twentieth century, its essence and directions. Firidun bəy Kocharli showed exceptional efforts in researching the history of Azerbaijani literature, opened a new page in the science of national literary criticism with his works “Literature of the Azerbaijani Tatars” and “Literature of the Azerbaijani Turks”.

Firidun bey Kocharli's research in the field of literary criticism covers various contemporary issues of national literature. He mentioned about the problems of literature and life, enlightenment, poetry, fiction, theater and drama, which still retain their scientific and theoretical value.

Key words: Azerbaijani literature, literary criticism, Firidun bey Kocharli, national literature, history of literature

## [Özət]

Görkəmli mütəfəkkir Firidun bəy Köçərlinin(1863-1920) ədəbi-tənqidi və ədəbiyyatşünaslıq fəaliyyəti iyirminci yüzilin başlanğıcında Azərbaycan nəzəri-estetik fikrinin keşdiyi yolu, onun mahiyyət və istiqamətlərini bütün yönlərilə əks etdirməkdədir. Ədib Azərbaycan ədəbiyyatı tarixinin araşdırılmasında müstəsna xidmətlər göstərmiş, "Azərbaycan tatarlarının ədəbiyyatı" və "Azərbaycan türklərinin ədəbiyyatı" əsərlərilə milli ədəbiyyatışünaslıq elmində yeni səhifə açmışdır.

Firidun bəy Köçərlinin ədəbi tənqid sahəsindəki araşdırmaları milli ədəbiyyatın müxtəlif aktual problemlərini əhatə etməkdədir. O, ədəbiyyat və həyat problemi, maarifçilik, poeziya, bədii nəsr, teatr və dramaturgiya haqqında bu gün də elmi-nəzəri dəyərini qoruyub saxlayan mülahizələr söyləmişdir.

Açar sözlər: Azırbaycan ədəbiyyatı, ədəbi tənqid, Firidun bəy Köçərli, milli ədəbiyyat, ədəbiyyat tarixi